# GƏLİN BİRLƏŞƏK

الله
رسول
محمد

(ADNAN OKTAR) HARUN YƏHYA

ADNAN OKTAR (HARUN YƏHYA)

# GƏLİN BİRLƏŞƏK

*Tək Allaha inananlar qısa müddətdə birlik qurmalıdır. Fərqli dinlərə mənsub inananlar niyə birləşməlidirlər? Ortaq inanclarımızı ortaya çıxaraq.*

— 16 fəsil —

# Mündəricat


1 Canlılıq təsadüflər nəticəsində var olmamışdır 4

2 Elmdən kənar boş söz: təkamül nəzəriyyəsi 8

3 Allahın varlığının dəlilləri bütün kainatı əhatə etməkdədir 9

4 Darvinizm cəmiyyətlər üçün böyük təhlükədir 10

5 Bir olan Allaha iman edənlər tezliklə ittifaq qurmalıdır 11

6 Fərqli dinlərə mənsub inananlar hansı səbəbə birlik olub birləşməlidir? 13

7 Radikalizm təhlükəsi, yaxşılar pisliyə qarşı birləşməlidir 14

8 Birlikdə yaradılış həqiqətini insanlara izah edək 17

9 Gəlin, ortaq inancları ortaya çıxaraq 20

10 Müsəlmanlar Hz. İsa (ə.s)-a böyük sevgiylə bağlıdırlar 23

11 Tarix müsəlmanlar ilə Kitab əhli arasındakı dostluğun nümunələriylə doludur 27

12 Xristianlar və müsəlmanlar üçün ortaq müjdə: Hz. İsa (ə.s)-ın gəlişi 30

13 Hz. İsa (ə.s)-ın gəlişi xristian dünyası üçün böyük müjdədir 33

14 Qurana tabe olan müsəlmanlar olduqları mühitin ən müasir insanlarıdır 35

15 Qəlblər yalnız Allaha yönəlməklə rahatlıq tapar 37

16 Son söz 38

FƏSİL

# Canlılıq təsadüflər nəticəsində var olmamışdır

Onun bizə verdiklərindən ilk ağla gələnləri əvvəlcə düşünək... Həyatımızı davam etdirə bilməmiz üçün xüsusi yaradılmış, bütün detallarıyla incə-incə planlanmış bir dünyada yaşayırıq. Lakin bizlər bu nizamı təmin etmək üçün heç bir şey etmədik. Bizim bu mövzuda heç bir qatqımız olmadı; nə Günəşin Dünyaya uzaqlığını biz nizamladıq, nə də Dünyanın heç dayanmadan dönməsini... Nə Dünyanın isinməsi üçün Günəşin yer üzünə şüalar göndərməsi lazım olduğunu biz düşündük, nə də bu şüaların vəsilə olduğu qida, su və azot dövrünü biz planladıq... Həyatımızı davam etdirə bilmək üçün hər an nəfəs ala bilməyi, ürəyimizin heç dayanmadan atışını, hər nəfəsdə oksigen tənəffüs etməyi də biz təmin etmədik. Bizlər bütün bunları hesablamadığımız kimi, yaşamamız üçün lazımlı olan milyardlarla detalın heç birini özlüyümüzdən meydana gətirmədik. Biz yalnız bir gün gözümüzü açdıq və özümüzü saysız nemət içərisində tapdıq. Məhz bu nemətləri yaradan və rahat yaşaya bilməmiz üçün bizlərin xidmətinə təqdim edən Uca varlıq, Allahdan başqası deyil.



O halda biz insanlara düşən, özünün və hər şeyin Yaradıcısı olan Allahı bilmək və Ona şükür edici olmaqdır.

Allahın varlığı isə bütün dəlilləriylə ortadadır. Necə ki, kainatda və canlılarda müşahidə edilən yaradılış, ancaq yüksək ağılın nəticəsi olaraq ortaya çıxa bilər və bu, heç şübhə yox, açıq-aşkar bir həqiqətdir.



Bu həqiqətlə üzləşən vicdan sahibi insan, özünü və bütün kainatı yaradanın Uca Allah olduğunu dərhal anlayacaq, sahib olduğu nemətlərə təsadüflər nəticəsi deyil, Allahın lütfü ilə çatdığını qavrayacaq, könüldən Ona yönələcək.



Necə ki, əlinə kitab alan insan belə onun bir yazıçı tərəfindən müəyyən bir məqsəd çərçivəsində yazıldığını bilər. Bu kitabın təsadüfən ortaya çıxdığı ağılının ucundan belə keçməz. Ya da bir heykələ baxan insan, onun bir sənətçi tərəfindən edildiyindən heç bir şübhə duymaz. Üstəlik, saysız sənət əsərinin öz-özünə meydana gəldiyini düşünmək bir tərəfə, üst-üstə dayanan iki-üç kərpici belə mütləq planlı hərəkətlə bu şəklə gətirən biri olduğunu kimsə inkar etməz. Bu səbəbdən kiçik, ya da böyük, bir nizamın olduğu hər yerdə, mütləq bu nizamın bir qurucusunun və qoruyucusunun olması lazım olduğunu anlar.



Buradan yola çıxaraq düşünüldüyü təqdirdə asanlıqla görüləcək ki, bədənimizdən başlayıb, ağla sığmaz böyüklükdəki kainatın ən uc nöqtələrinə qədər var olan bütün varlıqların və tarazlıqların da bir qurucusu və yaradıcısı vardır və bu, rədd edilə bilməz bir həqiqətdir. Bu Yaradıcı, hər şeyi ən incə detallarına çatana qədər, təşkil edib meydana gətirən, hər şeyin Özündən varlıq tapdığı, Öz varlığı isə əzəli və əbədi olan Uca Allahdır.

FƏSİL

# Elmdən kənar boş söz: təkamül nəzəriyyəsi

Uca Allahın varlığı və bütün canlıların Onun tərəfindən yaradıldığı həqiqəti, 19-cu əsrə qədər insanlığın böyük əksəriyyəti tərəfindən qəbul edilirdi. Ancaq 19-cu əsrin ortasında Çarlz Darvin adlı həvəskar bir təbiət tədqiqatçısı, həyatın tək bir hüceyrənin təsadüfən meydana gəlməsiylə başladığını və bu hüceyrənin zaman ərzində təsadüflər nəticəsi inkişafıyla bugünkü canlılar aləminin meydana gəldiyini iddia etdi. Bu nəzəriyyə, ortaya atılar-atılmaz bəzi dindən kənar ideologiyaları müdafiə edən kütlələrin maraq mərkəzi oldu, çünki bu azğın fikir ateizmə guya elmi təməl təmin etmişdi. Lakin Darvin DNT-nin varlığından belə xəbərsiz idi. O tarixdə genetik, bioriyaziyyat, mikrobiologiya, paleontologiya, biokimya, biofizika kimi elm sahələri bilinmirdi. Bu səbəbdən təkamül nəzəriyyəsi tam bir cəhalət mühitində inkişaf etmişdi. İnkişaf edən texnologiya, müasir tibb və biologiya insan bədənindəki sirləri açdıqca təkamül nəzəriyyəsinin tamamən yalan olduğu aydın oldu. Xüsusilə də on minlərlə fərqli canlı növünə aid milyonlarla fosil nümunəsinin ortaya çıxarılması, bu saxta nəzəriyyəyə ən böyük zərbəni vurdu. Dünyanın müxtəlif bölgələrində əldə edilmiş yüz milyonlarla fosil, canlılığın birdən, kompleks quruluşuyla, nöqsansız olaraq var olduğunu və milyonlarla il boyunca heç bir dəyişikliyə məruz qalmadığını göstərdi.

FƏSİL

# Allahın varlığının dəlilləri bütün kainatı əhatə etməkdədir

İçində yaşadığımız ucsuz-bucaqsız kainatda fövqəladə ahəng və tarazlıq vardır. Baxdığımız hər yer Allahın yaratma sənətinin bənzərsiz təcəlliləri ilə doludur. Yer üzündəki bütün həssas quruluş və tarazlıqlar, Rəbbimizin sonsuz güc və qüdrətinin açıq-aşkar göstəricisidir. Heç şübhə yox bu nöqtədə insana düşən, Allahın bütün bu qüsursuz nizamı insan həyatına ən uyğun şəkildə yaratdığını fərq etmək, bu həqiqət üzərində düşünmək, səmimi bir ürəklə Allaha yönəlmək və yalnız Ona qulluq etməkdir.

FƏSİL

# Darvinizm cəmiyyətlər üçün böyük təhlükədir

Bir cəmiyyətin Allaha olan inancının itməsi və ya zəifləməsi, o cəmiyyətdə yaşayan insanların özlərini təsadüfən meydana gəlmiş canlı olaraq hesab etmələri, o cəmiyyət üçün böyük mənəvi məhv olmadır. Allahdan qorxmayan bir insan üçün heç bir mövzuda sərhəd yoxdur. Həmçinin ölümdən sonra yenidən diriləcəklərini, dünyada etdiklərinə görə cənnət və ya cəhənnəm ilə qarşılıq görəcəklərini inkar edən insanlar, son dərəcə təhlükəli, etibarsız, təcavüzkar, cinayətə meylli, mərhəmətsiz və mənfəətçi ola bilməkdədirlər. İnsan sevgisindən uzaq, zalım, təcavüzkar, eqoist, əxlaqi dəyərlərə əhəmiyyət verməyən nəsillər yetişdirən darvinist sistemdə, çox ölkə öz vətəndaşlarıyla böyük problemlər yaşamaqdadır. Xuliqanlar, neo-nazilər, faşistlər, kommunistlər, anarxistlər, terroristlər bu ölkələri yaşanmaz hala gətirməkdədir.

Çox yaxşı bilinməkdədir ki, bütün dünyada əsas gənclər arasında olmaq üzrə əxlaqi degenerasiyanın və cinayət nisbətlərinin artmasının ardında yatan həqiqət, Darvinizmin təlqinləridir. Gənclərə həmişə guya bir heyvan növü olduqları, dəyərsiz və məqsədsiz olduqları, qarşıdurmanın həyatın sanki bir qanunu olduğu təlqin edilib, daha sonra da nə səbəbə degenerasiya olduqlarını sorğulamaq səmimi davranış deyil.

Əxlaqi degenerasiyanın qabağına keçmək, darvinist təlqinlərə son verilməsi və din əxlaqının izah edilməsiylə mümkündür. Çünki, yaşanan bir çox nümunə ədliyyə və hərbi tədbirlərin tək başına yetərli olmadığını göstərmişdir. Unudulmamalıdır ki, gicitkən otlarını biçməklə gicitkənlər tükənməz. Biçilən yerlərdən daha gur və çox budaqlı olaraq inkişaf edər. Çözüm, gicitkən otunu kökündən çıxarıb atmaqdır. Darvinist təlqinlərin səhvi ortaya qoyulmadıqca, problemlər heç bir şəkildə qalıcı həllə qovuşmayacaq.

FƏSİL

# Bir olan Allaha iman edənlər tezliklə ittifaq qurmalıdır

Bu gün dünya üzərində iki qütb vardır. Ancaq bu iki qütbün tərəfləri müsəlmanlar və yəhudilər, xristianlar deyil. Bu iki qütbün bir tərəfində, Allahın varlığına və birliyinə iman edənlər, digər tərəfində isə inkarçılar, digər bir ifadəylə bir tərəfində din əxlaqını müdafiə edənlər, digər tərəfində də din əxlaqına qarşı olan ideologiyaları müdafiə edənlər iştirak etməkdədir.



Xristianların və müsəlmanların ortaq inanc əsaslarına, ortaq ibadətlərə, ortaq əxlaqi dəyərlərə, ortaq düşmənlərə sahib olduqları hər üç İlahi dinin də müqəddəs kitablarında izah edilməkdədir. İnanclı, səmimi, vicdanlı xristianlara, yəhudilərə və müsəlmanlara düşən, pisliklərə və pislərə qarşı ortaq mübarizə icra etmək, köməkləşmək, birlik və bərabərlik içində çalışmaqdır. Bu birlik, sevgi, hörmət, anlayış, uyğunlaşma və əməkdaşlıq prinsipləri təməl alınaraq inşa edilməlidir. Vəziyyətin nə qədər təcili olduğu göz qarşısında saxlanılmalı, çəkişmə, mübahisə və ayrılığa gətirib çıxaracaq ünsürlərdən şiddətlə qaçınmalıdır.



Keçmişdə bu dinlərin mənsubları arasında müxtəlif anlaşılmazlıqlar olmuş ola bilər; bu tarixi həqiqətdir. Ancaq bunlar, Xristianlıq, Yəhudilik və İslamın özündən deyil, dövlətlərin, birliklərin və fərdlərin səhv qərar və düşüncələrindən, çox vaxt iqtisadi və ya siyasi mənfəət və gözləntilərindən qaynaqlanmışdır. Yoxsa, hər üç ilahi dinin ortaq məqsədlərindən biri, bütün insanların sülh, hüzur, təhlükəsizlik və xoşbəxtlik içində yaşamalarıdır və buna zidd qarşıdurma üç dinə görə də səhvdir.



FƏSİL

# Fərqli dinlərə mənsub inananlar hansı səbəbə birlik olub birləşməlidir?

Heç şübhə yoxdur ki, dünyanın sülhə, dostluğa və qardaşlığa bəlkə də ən çox ehtiyac duyduğu dövrlərdən birini yaşayırıq. 20-ci əsrə damğasını vuran qarşıdurmalar və müharibələr, yeni əsrdə də bütün sürətiylə davam edir, dünyanın dörd bir tərəfindəki günahsız insanlar bu müharibələrə görə böyük maddi və mənəvi itkiyə məruz qalırlar.

Ancaq bəzi kütlələr israrla dünyanın iki böyük və köklü mədəniyyəti arasındakı qarşıdurmanı qızışdırırlar. Halbuki açıq şəkildə görülməkdədir ki, bu kəslərin zorakı mədəniyyətlər qarşıdurması bütün insanlığı böyük fəlakətə aparmaqdadır. Belə bir fəlakətin maneə törədilməsinin ən əhəmiyyətli yollarından biri, mədəniyyətlər arasında dialoqun və əməkdaşlığın gücləndirilməsidir.

FƏSİL

# Radikalizm təhlükəsi, yaxşılar pisliyə qarşı birləşməlidir

Zərərli və dağıdıcı hərəkət olmasına baxmayaraq radikalizmin tərəfdar toplaya bilməsinin təməlində cəhalət yatmaqdadır. Gərəyi kimi məlumatlandırılmayan, ya da səhv və ya tək tərəfli məlumatlandırılan kütlələr həddindən artıq axınların təsiri altına girə bilməkdə, bu axınların qarşıya qoyduğu fikirləri mühakimə etmədən qəbul edə bilməkdədirlər.




Üç İlahi dinin mənsublarının əməkdaşlığı ilə icra edəcəkləri fikri mübarizələr, radikalizmə zəmin hazırlayan şərtlərin ortadan qaldırılmasına vasitəçi olacaq.



GREEK ORTHODOX PATRIARCHATE
OF ALEXANDRIA AND ALL AFRICA

Address of His Beatitude

Petros VII

Pope and Patriarch of Alexandria and All Africa

to the 12th International Meeting "People and Religion"

"Christianity and Islam in Dialogue"

31st August, 1998.

It can be said that dialogue between Christianity and Islam springs from the essence of Christianity, which is the foremost religion of dialogue. God Himself in the Old Testament, as the God Creator, speaks with man (cf. Gen. 1:28; 17:1-2, Exod. 3:4-6) and reveals the uniqueness of His divine existence (cf. Deut. 6:4); and the same God, in the New Testament, in the person of the incarnated Logos of God, reveals Himself to the world (cf. John 1:14) and calls everyone to repentance (cf. Mark 1:15) and salvation (cf. John 1:13-19).

1

The First Alexandria Declaration
of the Religious Leaders of the Holy Land

Alexandria, January 21, 2002

*The first Middle East Interfaith Summit with the participation of the leaders of the three monotheistic faiths, held in Alexandria, Egypt, issued the following statement:*

In the name of God who is Almighty, Merciful and Compassionate, we, who have gathered as religious leaders from the Muslim, Christian and Jewish communities, pray for true peace in Jerusalem and the Holy Land, and declare our commitment to ending the violence and bloodshed that denies the right of life and dignity.

According to our faith traditions, killing innocents in the name of God is a desecration of His Holy Name, and defames religion in the world. The violence in the Holy Land is an evil which must be opposed by all people of good faith. We seek to live together as neighbors respecting the integrity of each other's historical and religious inheritance. We call upon all to oppose incitement, hatred and misrepresentation of the other.

1. The Holy Land is holy to all three of our faiths. Therefore, followers of the divine religions must respect its sanctity, and bloodshed must not be allowed to pollute it. The sanctity and integrity of the holy places must be preserved, and freedom of religious worship must be ensured for all.

2

Müsəlmanların Kitab Əhlinə hörmət, sevgi və anlayış ilə yaxınlaşmaları və onlara Quranın “ortaq bir sözdə birləşmə” çağırışını ən gözəl şəkildə çatdırmaları lazımdır. Müsəlmanlıq ilə xristianlığın və yəhudiliyin ittifaqının sirri bu çağırışdadır:



> *De: "Ey Kitab əhli! Bizim və sizin aranızda olan eyni bir kəlməyə gəlin ki, Allahdan başqasına ibadət etməyək, Ona heç bir şeyi şərik qoşmayaq və Allahı qoyub bir-birimizi ilahiləşdirməyək". Əgər onlar üz döndərsələr, deyin: "Şahid olun ki, biz müsəlmanlarıq!"*
>
> **(Al İmran surəsi, 64)**


1

UAHC ONLINE PRESS ROOM

Contact: Emily Grotta | Alexis Rice
UAHC | RAC
212.650.4221 | 202.387.2800
uahc@uahc.org | arice@rac.org

Related Links

**Reform Jewish Leaders "Outraged" At Reports Of Attacks Against Arab Americans And Muslim Americans**

***"We must not allow this attack on America to divide Americans."***

**by Rabbi Eric H. Yoffie and Rabbi David Saperstein**

September 13 (NEW YORK, NY)-Rabbi Eric H. Yoffie, president of the Union of American Hebrew Congregations and Rabbi David Saperstein, director of the Religious Action Center of Reform Judaism, today released the following statement concerning reports of attacks on Arab Americans and Muslim Americans individuals and institutions.

2

**TECHNOLOGY**

**Building a better future together**

In a place made famous in the Bible - Nazareth - a new form of inspiration is taking place: a working model for coexistence between Jews and Arabs based on technology and entrepreneurship.

3

**GLOBAL DEMOCRACY**

**A bridge over water cooperation**

Chairman of the Palestinian Water Authority Nabil El-Sharif and Israeli Water Commissioner Shimon Tal agree that Israelis and Palestinians working together on water usage and development of new water resources is the only path to economic stability and long-term growth in the region.

The two officials appeared on a panel discussion on 'New Strategies of Water in the Middle East' appeared together last week at the Institute for Water Sciences and Technologies, part of the Jacob Blaustein Institute for Desert Research at Ben-Gurion University of the Negev, as part of the University's 33rd annual Board of Governor's meeting.

"Cooperation on water is the only path to a better quality of life for Israelis and for Palestinians," said El-Sharif. He expressed hope for progress in the political arena since "only

Bu çağırışın məqsədi inanclı bütün insanları, ortaq məqsədlər istiqamətində birləşməyə; ateizmə, din düşmənliyinə və ictimai və əxlaqi degenerasiyaya qarşı birlikdə mübarizəyə, əl-ələ verərək gözəl əxlaqı yer üzünə yaymağa dəvət etməkdədir. Bu çağırış səmimi, vicdanlı, tolerant, kömək sevər, sağlamfikirli, gözəl əxlaqlı, sülh və ədalət tərəfdarı bütün yəhudi, xristian və müsəlmanlara edilməkdədir.


1

**Cleric condemns suicide attacks**

**One of the world's most influential Islamic leaders has condemned all attacks by suicide bombers at an international conference for Islamic scholars.**

Grand Sheikh Mohammed Sayed Tantawi of the Al-Azhar mosque of Cairo - which is seen as the highest authority in Sunni Islam - said groups which carried out suicide bombings were the enemies of Islam.

Speaking at the conference in the Malaysian capital, Kuala Lumpur, Sheikh Tantawi said extremist Islamic groups had appropriated Islam and its notion of jihad, or holy struggle, for their own ends.

He called on Muslim nations to open themselves to dialogue with the West saying Islamic nations should "wholeheartedly open our arms to the people who want peace with us".

**The difference between jihad in Islam and extremism is like the earth and the sky**
Sheikh Tantawi

2

**"Islam Does Not Permit Aggression Against Innocent People"**
**says Sheikh Yusuf Al-Qaradawi**

DOHA, October 15 (IslamOnline)- Prominent Muslim scholar Sheikh Yusuf Al-Qaradawi on Tuesday, October 15, branded the Bali blast as a heinous crime "which is no more than a total barbarism that is void of morality and human feeling as well."

Interviewed by IslamOnline, Al-Qaradawi stressed that "Islam not only prohibits attacking non-Muslims who do not launch attacks against Muslims, but it also urges Muslims to treat those non-Muslims with due respect and kindness, especially non-Muslims who live along with Muslims within the Islamic territories."

"It goes without saying that the tragedy that occurred in Bali, in which a bomb blast claimed the lives of more than hundred tourists, is actually a heinous crime.

"It is even an act of spreading mischief in the land or Hirabah in juristic term; a crime in Islam for which a severe punishment is specified, without discrimination as to race, color, nationality or religion of the culprit," he asserted.

FƏSİL

# Birlikdə yaradılış həqiqətini insanlara izah edək

Qəflət içindəki insanların, hər gün ətraflarında olub bitən lakin fərqinə varmadıqları bir çox yaradılış dəlilini, mükəmməllikləri bütün detallarıyla onların gözləri önünə sərmək, bu kəslərin qəflətlərinin dağılmasında son dərəcə təsirli olar. İllərdir hər kəsin görməyə alışdığı və bir çox kimsənin üzərində düşünmədiyi bir çox iman həqiqəti vardır. İnsanın yalnız öz bədəni belə başlı başına böyük yaradılış dəlilidir. Sahib olduğumuz gözlər dünyanın ən inkişaf etmiş kameralarından daha kompleks və üstündür. Bədənimizdəki hər sistem, böyük uyğunluq və tarazlıq içində işləməkdə, nəhəng laboratoriyalarda ancaq reallaşdırıla biləcək olan kimyəvi əməliyyatlar, daxili orqanlarımız tərəfindən daha mükəmməl bir şəkildə edilməkdədir. Bu qəflət mədəniyyətini ortadan qaldırmaq və yerinə Allaha şükür və itaət təməlində qurulmuş bir mədəniyyət yerləşdirmək üçün, yəhudi, xristian və müsəlmanların əl-ələ verməsi lazımlıdır.



Quranın bir çox ayəsində də insanlar yuxarıda saydığımız həqiqətlər üzərində düşünməyə, Allahın varlığını və böyüklüyünü göstərən bu dəlilləri görməyə və qavramağa dəvət edilmişlər. Bu mövzudakı yüzlərlə ayədən bir neçəsi belədir:



*Məgər Allahın yeddi göyü təbəqə-təbəqə necə yaratdığını görmürsünüz? Ayı bir nur, günəşi də çıraq etmişdir. Allah sizi torpaqdan bir bitki kimi bitirmişdir. Sonra O sizi ora qaytaracaq və yenidən çıxardacaqdır. Allah yeri sizin üçün xalı təki döşədi. Elə etdi ki, orada geniş yollarla hərəkət edəsiniz"*

**(Nuh surəsi, 15-20)**



Bütün kainat bunlar kimi saysız detallarla doludur. Lakin yuxarıda ifadə etdiyimiz kimi insanların çoxu gündəlik həyatlarında bunları düşünməzlər. Bu səbəblə yaradılış dəlillərini insanların heç düşünmədikləri istiqamətləri ilə izah edərək edilən bir təbliğ qarşı tərəfi düşünməyə sövq edəcək, Allahın gücünü və qüdrətini tanıyıb təqdir etməsində də təsirli olacaq.



Səmimi iman edən hər xristian, hər yəhudi, hər müsəlman bu istiqamətdə əlindən gələn bütün səyi göstərməklə mükəlləfdir. Tək bir Allaha iman edən, Onun razılığını qazanmağa çalışan, Ona tam bir təslimiyyətlə təslim olmuş, Ona ürəkdən bağlı, Onu ucaldan, təməldə eyni dəyərləri müdafiə edən yəhudi, xristian və müsəlmanların ortaq hərəkət etmələri ən doğrusudur.



FƏSİL

# Gəlin, ortaq inancları ortaya çıxaraq

Haqq dinlər, təməldə eyni inanc və əxlaqi modeli insanlara təqdim etmişlər. Hamısı, Allahın varlığı, birliyi, insanın və bütün varlıqların yaradılış məqsədləri, Allahın bəyəndiyi ideal rəftar və həyat formasının necə olması lazım olduğu, yaxşı, pis, doğru, səhv anlayışlarının nələr olduqları, sonsuz həyat üçün nələr etməsi lazım olduğu kimi mövzularda eyni inanc əsaslarına malikdir.



Xristianlığın təməli olan Əhdi-Cədiddə, yəhudiliyin təməli olan Tövrata və İslamın təməli olan Qurana baxdığımızda, qarşılıqlı əlaqələrdə ən gözəl söz və davranışların tövsiyə edildiyini görərik. İnananların digər insanlara qarşı mənimsəmələri lazım olan davranış forması İncildə belə izah edilər:



**Bir-biriniz və bütün insanlar üçün hər vaxt yaxşılığı məqsəd hesab edin. (1 Saloniklilərə, 5/15)**



Quranda isə Rəbbimiz, bir çox ayəsində gözəl əxlaqın, yaxşılığın, pisliyə yaxşılıqla cavab vermənin əhəmiyyətini bildirmiş, yəhudilərə və xristianlara, yəni Kitab Əhlinə qarşı da, müsəlmanların şəfqətlə yaxınlaşmalarını buyurmuşdur.



Quranda Əhli Kitabın, yəni xristianlar və yəhudilərin, müşriklərə (yəni bütpərəst və ya dinsizlərə) görə, müsəlmanlara daha yaxın olduqları açıq şəkildə bildirilmişdir. Əhli Kitab, təməli Allahın vəhyinə söykənən əxlaqi meyarlara, haram və halal anlayışlarına malikdir. Bunun üçün Kitab Əhlindən kəslərin bişirdiyi bir yemək, müsəlmanlar üçün halal qılınmışdır. Eyni şəkildə müsəlman kişilərə Kitab Əhlindən qadınlarla evlənmə icazəsi verilmişdir. Bunlar yaxın insani əlaqələr və dinc ortaq həyat qurulmasını təmin edəcək əsaslardır. Quranda bu mülayim və şəfqətli dünyagörüşü tövsiyə edilərkən, müsəlmanların əksinə bir fikirdə olması düşünülə bilməz.



Allah, müsəlmanlara Quranda, Kitab Əhlinə qarşı gözəl söz söyləmələrini bildirmişdir. Kitab Əhli ilə möminlər arasındakı ən əhəmiyyətli ortaq istiqamət, heç şübhəsiz bir olan Allaha imandır:

> *...Kitab əhli ilə ən gözəl tərzdə müzakirə edin və deyin: "Biz həm özümüzə nazil olana, həm də sizə nazil olana iman gətirdik. Bizim də məbudumuz, sizin də məbudunuz birdir. Biz yalnız Ona itaət edirik".*
>
> **(Ənkəbut surəsi, 46)**

> *De: "Ey Kitab əhli! Bizim və sizin aranızda olan eyni bir kəlməyə gəlin ki, Allahdan başqasına ibadət etməyək, Ona heç bir şeyi şərik qoşmayaq və Allahı qoyub bir-birimizi ilahiləşdirməyək".*
>
> **(Ali İmran surəsi, 64)**

FƏSİL 0

# Müsəlmanlar Hz. İsa (ə.s)-a böyük sevgiylə bağlıdırlar

Mübarək kitabımız Quranı Kərimdə hz. İsa (ə.s) haqqında bir çox məlumat verilməkdə, hz. İsa (ə.s)-ın, Allahın, hz. Məryəmə göndərdiyi Cəbrayılın müjdələməsiylə atasız olaraq dünyaya gəldiyi, doğulduqdan dərhal sonra insanlarla danışdığı, Allahın ilhamıyla körpə yaşında möcüzələr göstərdiyi izah edilməkdədir. Yenə Qurana görə hz. İsa (ə.s) həyatı boyunca Allahın nümunəvi qulu və elçisi olmuş, Tövratı təsdiqləyən, yol göstərici və öyüd olan İncili təbliğ etmiş və insanları Allaha səmimiyyətlə qul olmağa dəvət etmişdir.



Xristianlıq və İslam arasındakı əhəmiyyətli qaynaşdırıcı ünsür hər iki dinin mənsubların tərəfindən paylaşılan hz. İsa (ə.s) sevgisidir. Quranda, bütün peyğəmbərlərin eyni İlahi mesajları insanlara çatdırdıqları, onları müjdələdikləri və xəbərdar etdikləri, eyni zamanda cəmiyyətlərinə ən gözəl şəkildə nümunə olduqları izah edilər. Məhz bu səbəblə müsəlmanlar, peyğəmbərlərin hamısına iman edərlər, onlar arasında ayrım etməzlər.



Müsəlmanlar, hz. Məhəmməd (s.ə.v) kimi, hz. İsa (ə.s)-a da iman edər, ona qarşı böyük sevgi və hörmət edərlər. İsa Peyğəmbər, Quranda, "Allahın elçisi və sözü" (Nisa surəsi, 171) olaraq tanıdılar; onun insanlığa bir "ayə (əlamət)" qılındığı (Ənbiya surəsi, 91) bildirilər; mübarizəsi, möcüzələri, həyatı haqqında çox əhəmiyyətli məlumatlar verilər. İsa Məsih bir Quran ayəsində belə təriflənməkdədir:



*O zaman mələklər dedilər: "Ey Məryəm! Həqiqətən, Allah səni Öz tərəfindən, adı Məryəm oğlu İsa Məsih olan bir kəlmə ilə müjdələyir. O, bu dünyada və axirətdə şan-şöhrətli və Allaha yaxınlaşdırılmışlardan olacaqdır..."*

**(Ali İmran surəsi, 45)**



Müsəlmanlar, İncilin Allah Qatından endirilmiş İlahi kitab olduğuna (sonradan insanlar tərəfindən təhrif edilmişdir, ancaq içindəki haqq hökmlərin bəziləri dövrümüzə qədər qorunmuşdur) inanarlar. İncilin xristianlara, Allah tərəfindən yol göstərici, doğrunu səhvdən, halalı haramdan ayıran xüsusiyyətlərlə endirildiyini bilərlər. Lakin hz. İsa (ə.s)-a verilən İncilin xüsusiyyətləri bir Quran ayəsində belə açıqlanar:



*Onların ardınca Məryəm oğlu İsanı özündən əvvəlki Tövratı təsdiqləyici olaraq göndərdik. Ona içərisində hidayət və nur olan, özündən əvvəlki Tövratı təsdiqləyən, müttəqilər üçün doğru yol göstəricisi və öyüd-nəsihət olan İncili verdik.*

**(Maidə surəsi, 46)**

İslam mədəniyyəti və Qərb mədəniyyəti arasında bir qarşıdurma ola bilməz, çünki Qərb mədəniyyətinin təməllərini meydana gətirən yəhudi-xristian inancı, İslamla qarşıdurma deyil uyğunlaşma və ittifaq içindədir.

FƏSİL

# Tarix müsəlmanlar ilə Kitab əhli arasındakı dostluğun nümunələriylə doludur

Tarixdə, İslam idarəsi altındakı xristian və yəhudilərin mövqeyini tərəfsiz gözlə araşdıran hər kəs açıq həqiqətlə qarşılaşacaq: Kitab Əhli, İslam idarəsi altında hər zaman hüzur və təhlükəsizlik içində yaşamışdır. Hətta, bəzən başqa başçıların altında zülm görərək, İslam torpaqlarına sığınmışlar və axtardıqları etibarı müsəlman ölkələrdə tapmışlar.



Xristianların digər inanclı cəmiyyətlərlə müqayisədə müsəlmanlarla xüsusi dostluq içində olacaqlarına da Quranda diqqət çəkilmişdir. Müsəlmanlara ən yaxın insanların xristianlar olduqları və bunun səbəbi bir ayədə belə ifadə edilmişdir:



*...dostluq baxımından iman gətirənlərə ən yaxın olduğunu görəcəksən. Çünki onların arasında keşişlər və rahiblər vardır və onlar təkəbbürlük göstərmirlər.*

**(Maidə surəsi, 82)**



Bu ayədə bildirilən yaxınlığın və isti əlaqələrin ilk nümunələri, peyğəmbərimiz hz. Məhəmməd (s.ə.v)-in zamanında yaşanmışdı. Zülm görən bəzi müsəlmanlar, hz. Məhəmməd (s.ə.v)-in istiqamətləndirməsiylə, xristian kral Nəcaşi rəhbərliyindəki

Həbəşistana hicrət etdilər; orada təhlükəsizlik və hüzur içində yaşadılar. İslamın ilk illərində müsəlmanlar ilə xristianlar arasında tolerantlıq, sülh, hörmət, əməkdaşlıq, yardımlaşma, din, inanc və ibadət azadlığı əsaslarına söykənən yaxşı əlaqələr quruldu. Yenə bu dövrdə evlilik, ticarət, qonşuluq kimi ictimai həyatın ünsürləri, bütün müsəlmanlar və xristianlara nümunə olacaq şəkildə tətbiq olundu.



FƏSİL 2

# Xristianlar və müsəlmanlar üçün ortaq müjdə: Hz. İsa (ə.s)-ın gəlişi

Hz. İsa (ə.s)-ın yer üzünə yenidən gələcək olması, biz müsəlmanlar üçün çox əhəmiyyətlidir. O Allahın bir möcüzəsiylə atasız olaraq doğulmuş, İsrailoğullarını doğru yola dəvət etmiş, onlara bir çox möcüzələr göstərmiş olan bir peyğəmbərdir. Məsihdir və Qurana görə "Allahın sözü"dür (Nisa surəsi, 171). Onun yenidən yer üzünə gəlməsi ilə birlikdə isə, həqiqətdə eyni şəkildə Allaha inanan, eyni əxlaqi dəyərləri paylaşan və Qurana görə bir-birlərinə insanlar içində "sevgi tərəfindən ən yaxın olan" (Maidə surəsi, 82) xristianlar və müsəlmanlar arasındakı anlaşılmazlıqlar aradan qaldırılacaq və dünyanın bu ən böyük iki dini birliyi birləşəcək. Yer üzündəki digər İlahi dinin mənsubları, yəni yəhudilər də məsihləri olan hz. İsa (ə.s)-a iman edərək hidayət tapacaqlar (Nisa surəsi, 159). Beləcə üç İlahi din birləşəcək, yer üzündə Allaha iman təməli üzərinə qurulu tək bir din qalacaq. Bu din, Allahı inkar edən fəlsəfələri və bütpərəst inancları fikirlə məğlubiyyətə uğradacaq, beləcə dünya müharibələrdən, qarşıdurmalardan, irqçilikdən və etnik düşmənliklərdən, zülm və haqsızlıqlardan xilas olacaq, insanlıq sülh, xoşbəxtlik və hüzur içində "Qızıl dövr" yaşayacaq.



Bu, şübhəsiz, dünya tarixinin ən böyük hadisələrindən biridir. Üç İlahi dinin birləşəcəyi bu mühit, bütün Amerika qitəsinin, Avropanın, İslam dünyasının, Rusiyanın, İsrailin

ortaq inancla ittifaq qurması mənasını verər ki, bu cür bir birlik tarixdə heç təmin edilməmişdir. Bu birliyin dünyaya gətirəcəyi sülh, hüzur, sabitlik, xoşbəxtlik heç bir dövrdə təmin edilməmiş, bununla yanaşı tayı bərabəri və bənzəri görülməmişdir.



Üstəlik, hz. İsa (ə.s)-ın yer üzünə dönəcək olması, dünya tarixinin ən böyük möcüzələrindən biridir. Məhz, Allahın Quranda bildirdiyi işarələr, Peyğəmbərimiz (s.ə.v)-in hədisləri və İslam alimlərinin açıqlamaları işığında, bizlər bu mübarək dövrün çox yaxın olduğuna inanırıq. Biz müsəlmanlar olaraq, hz. İsa (ə.s)-ın yaxında gələcək olmasından ötəri böyük həyəcan duyur, özümüzü və dünyanı bu mübarək qonağa hazırlamaq üçün əlimizdən gələni edirik.



Xristianlara çağırışımız isə, onların da bu mövzuda mümkün qədər həssas, şüurlu və şövqlü olmalarıdır.

FƏSİL 3

# Hz. İsa (ə.s)-ın gəlişi xristian dünyası üçün böyük müjdədir

Xristianlara, hz. İsa (ə.s) sevgisi, tarix boyunca gözəl əxlaq qazandırmışdır. Allah Qurani Kərimdə xristianları "insanlar içində iman edənlərə sevgi baxımından ən yaxın" olanlar şəklində təsvir edər və ayənin davamında belə buyurar:

> *...onların arasında keşişlər və rahiblər vardır və onlar təkəbbürlük göstərmirlər.*
>
> **(Maidə surəsi, 82)**

Bir başqa ayədə isə xristianların müsbət əxlaqından belə bəhs edilir:

> *Sonra onların ardınca dalbadal elçilərimizi yolladıq. Sonra Məryəm oğlu İsanı göndərib ona İncil bəxş etdik. Onun ardınca gedənlərin qəlblərinə şəfqət və mərhəmət saldıq...*
>
> **(Hədid surəsi, 27)**

Tarix boyunca xristianlar müxtəlif zülmlərə dözmüş, dünya zövqlərindən əllərini çəkərək əziyyət dolu həyatları seçmiş, böyük fədakarlıqlar etmişlər. Bütün bunlar, səmimiyyətin əhəmiyyətli bir göstəriciləridir. Ancaq hz. İsa (ə.s)-ın qayıtmasının yaxın olduğu bu çağda, bu səmimiyyətin daha da güclü göstərilməsi lazımdır.

Xristian qaynaqlarına görə də hz. İsa (ə.s) yer üzünə dönəcək. Əhdi-Cədiddə dəfələrlə hz. İsa (ə.s)-ın yer üzünə yenidən dönəcəyi xəbər verilər.

Xristian qaynaqlarına görə də hz. İsa (ə.s)-ın dönüşü yaxındır. Bir çox Xristian, ikinci qayıdışın çox yaxın olduğu qənaətindədir. Çünki Əhdi-Cədiddə və Əhdi-Ətiqdə Məsihin gəlişi ilə əlaqədar bildirilən əlamətlərin çoxu reallaşmışdır.

Xristian qaynaqlarına görə də hz. İsa (ə.s)-ın dönüşü, tarixin ən böyük hadisəsi olacaq. Hz. İsa (ə.s) kimi Allahın üstün etdiyi müqəddəs bir peyğəmbər yaxında dünyaya gələcəyinə görə, bunun üçün hazırlıq edilməsi, bu mövzunun davamlı gündəmdə tutulması lazımdır.

Hz. İsa (ə.s) gəldiyində bütün inananları birləşdirəcəyindən, onsuz da yaxında heç bir mənası qalmayacaq olan xristianlar arası ayrılıqların, mübahisələrin, ədavətlərin bir kənara buraxılması lazımdır.

Hz. İsa (ə.s) gəldiyində, ona inanan bütün xristianlar və müsəlmanlar ortaq bir inancda birləşəcəyinə görə, xristianlar və müsəlmanlar arasındakı ön mühakimə və etibarsızlıqların aşılması üçün indidən çalışmaq lazımdır.

İncilin ən son hissəsi olan "Vəhy" kitabında belə yazar:

**"...Dünyanın hakimiyyəti, Rəbbimizin və Onun Məsihinin oldu. Və O sonsuzlara qədər hakimiyyəti sürəcək." (Vəhy, 11,15)**

> *Kitab əhlindən elə kimsə yoxdur ki, ölümündən əvvəl ona iman gətirməsin...*
>
> **(Nisa surəsi, 159)**

Quranda Hz. İsa (ə.s) ikinci dəfə yer üzünə gəldiyində bütün insanların ona iman edəcəyi bu ayə ilə bildirilər və bu şəkildə Axırzamanda imanın dünyaya hakim olacağına işarə edilməkdədir.

Bütün xristianların yaxınlaşan bu böyük müjdənin şüuru, həyəcanı, eşqi, şövqü içində olması lazımdır. Bu şüuru, həyəcanı, eşqi və şövqü yaşayan müsəlmanlar olaraq xristianlara səslənirik:

**Gəlin, hz. İsa (ə.s)-ın yaxınlaşan dönüşünə birlikdə hazırlanaq. Hz. İsa (ə.s)-ın bizə onsuz da ən doğrunu öyrədəcəyini bilərək, aramızdakı inanc fərqlərinə hörmət göstərək. Onun görmək istədiyi kimi, dünyanı sülh, qardaşlıq, mərhəmət və sevgi ilə doldurmağa çalışaq. Ona düşmən olan, Allahı inkar edən fəlsəfə və ideologiyalara qarşı birlikdə fikri mübarizə verək.**

**Gəlin, dünya tarixinin yaxınlaşan ən böyük möcüzələrindən və müjdələrindən birini birlikdə gözləyək.**

FƏSİL 4

# Qurana tabe olan müsəlmanlar olduqları mühitin ən müasir insanlarıdır

Uca Rəbbimiz Allah, Quranda hər şeyi ən gözəl və ən hikmətli şəkildə açıqlamış, Quran ilə insanlara ən doğru yolu göstərmişdir. Qurana əməl edən kəslər dünyanın ən ağıllı düşünən, hər hadisədə ən gözəl qərarı alan, ən gözəl davranışı sərgiləyən, dünyanın ən keyfiyyətli, ən seçilmiş ən ağıllı, ən stabil, ən tutarlı insanlarıdır. Digər tərəfdən müsəlmanlar çox gözəl xasiyyətli, mehriban, mərhəmətli, özünə və ətrafına zərər verməyən, əksinə özünə və ətrafına fayda təmin edən insanlardır.




Ancaq bəzi insanlar, Allah və din əleyhinə bəzi media quruluşlarının da təsirində qalaraq müsəlmanlar haqqında tamamilə səhv düşüncə yaratmaqda, onların müasirlikdən və ağıldan uzaq olduğunu düşünməkdədirlər. Əlbəttə bu kəslərin bu səhv düşüncələrində, özlərini müsəlman olaraq önə sürən, ancaq Allahın Quranda əmr etdiyi gözəl əxlaqdan son dərəcə uzaq həyat yaşayan bəzi insanların da təsiri vardır.




Lakin Quranda əmr edilən gözəl əxlaq xüsusiyyətlərini üzərində saxlayan hər müsəlman yalnız müasir deyil, son dərəcə müasir və son dərəcə ağıllı insandır. Həm görünüşündəki ağır rəftar, həm də davranışlarındakı zadəganlıq, onu, içində yaşadığı əsrin müasirliyi və ağlı irəliyə aparmaqdadır. Belə ki, hz. Məhəmməd (s.ə.v), dövrümüzə

gəlmiş olsa, bu əsrin ən müasir insanı olduğu dərhal fərq edilərdi. Hətta gələcək əsrlərin belə ən müasir insanı olardı.


Ekonomik kriz, suç türlerini değiştirdi
Suçta patlama
Geçen yıl gasp ve yağma % 51.9, hırsızlık ise % 32 arttı
1
Yeni Mesaj, 24 Ocak 2002

Hürriyet, 2 Ocak 2000
2
Suçun kara yılları

3
Her 56 saniyede bir suç
Bild gazetesi, Berlin'de 2000 yılında işlenen suçların sayısında azalma olmasına rağmen, istatistik verilerine dayanarak, her 13 dakikada bir saldırı, her saat bir soygun ve her 16 saatte bir tecavüz olayının yaşandığını belirtti.
Akit, 4 Nisan 2001

4
Terör çıldırdı
Posta, 19 Mayıs 2003

FƏSİL 5

# Qəlblər yalnız Allaha yönəlməklə rahatlıq tapar

18-ci əsrdəki "Aydınlanma" fəlsəfəsi və ardından gələn 19-cu əsr materializmi, Avropa cəmiyyətlərini ilahi dinlərdən uzaqlaşdırmış, yaranan mənəvi boşluq isə 20-ci əsrdə başda Hinduizm və Buddizm olmaq üzrə saxta Şərq dinlərini Qərb düşüncə dünyasına daşımışdır. Din əxlaqının cəmiyyət üzərindəki əsaslı təsirini ortadan qaldırmaq, materialist dünya görüşünün mənimsənməsini asanlaşdırmaq və mənəvi axtarış içində olan insanları "Allah inancına qarşı çıxan saxta din" ilə yanıltmaq cəhdində bu batil dinlər əhəmiyyətli rol oynamışlar.

Zəmanəmizdə bir çox insan hüzur və xoşbəxtliyi bu saxta dinlərdə axtarmaqdadır. Lakin Şərq dinləri bir çox azğın və səhv istiqamətə sahib təlimləri müdafiə etməkdədir və bu dinlərin bütün tətbiqləri ağıl və məntiqlə ziddiyyət təşkil etməkdədir. Hər şeydən əvvəl bu dinlər irqçiliyi, şiddəti və vəhşiliyi qanuni göstərən təlimlərə malikdir.

İnsanları Allah inancından uzaqlaşdıran, ilahi dinlərin insanlara tövsiyə etdiyi gözəl əxlaq anlayışını ortadan qaldırıb yerinə materialist və batil inanışları yerləşdirməyə çalışan bunun kimi axınlara qarşı, Allaha səmimiyyətlə iman edən bütün insanların birlik olaraq çox istiqamətli fikri mübarizə icra etmələri lazımdır. Bunun üçün edilməsi lazım olanlardan biri, ilahi dinlərin insanları dəvət etdiyi sülh, hüzur, güvən, ədalət, bərabərlik, yardımlaşma, mərhəmət, şəfqət və sevgi dolu dünya ilə batil dinlərindəki maddi və mənəvi azğınlığı təməl alan həyat şəkli arasındakı böyük uçurumu gözlər önünə sərməkdir. Heç vaxt unutmamaq lazımdır ki, Qərbli cəmiyyətlərdə bu səhv dinlərə simpatiya bəsləyən insanların çox böyük hissəsi əvvəlcə diqqəti cəlb etməyi, fərqli və orijinal rəftarlarla diqqətləri üzərində toplamanı məqsəd qoymaqdadırlar. Bir tərəfdən də xoşbəxtliyi bu dinlərdə tapacaqları yanılmasına qapılmaqdadırlar. Allahın elçiləri vasitəsiylə insanlara göndərdiyi haqq dinlərin doğru yollarından uzaqlaşaraq özlərini iç qaraldan, darıxdırıcı, qorxu və çətinliklərlə dolu bir dünyaya, çox böyük məhvə sürüməkdədirlər. Açıq şəkildə bilinməlidir ki, dünya və axirət həyatında həqiqi xoşbəxtlik ancaq Allaha könüldən iman etmək və Allahın ayələrinə əməl etməklə mümkündür.

FƏSİL 6

# Son söz

Ötən əsrdə materialist fəlsəfələrin müsibətdən başqa bir şey gətirmədiyini görən dünya insanları artıq Allaha yönəlir. Xüsusilə 20-ci əsrin son dövrlərində başlayan dinə və mənəviyyata geri qayıtma, sürətli bir axınla bütün dünyanı əhatə etdi. Allaha inanan, dua edən, yaradılış dəlillərini görən, ailə, dövlət, millət, əxlaq kimi anlayışlara layiq olduqları həqiqi dəyəri verən cəmiyyətlər meydana gəlməyə başladı.



Bilindiyi kimi, həm İslamda, həm də Xristianlıq və Yəhudilikdə insanlığın qiyamətə yaxın zamanda hüzur və güvən içində yaşaya biləcəkləri, hər cür çətinliyin yerini bolluq, bərəkət və ədalətin alacağı müqəddəs dövrdən bəhs edilər. Bu dövrdə əxlaqsızlıqlar, saxtakarlıqlar və degenerasiyanın hər cürü ləğv olacaq. Əsrlərdir gözlənilən bu müqəddəs dövrdə tək Allah inancı bütün dünyaya yayılacaq, Allahın bəyəndiyi gözəl əxlaqın yaşanmasıyla insanlar qurtuluşa qovuşacaq, texnologiyanın bütün nemətləri insanların xidmətinə təqdim ediləcək, elmdə, tibdə çox böyük irəliləmələr yazılacaq və hər yerdə çox böyük bolluq və bərəkət hasil olacaq. Və bizlər bu gün bu müqəddəs dövrdə yaşamaqdayıq.



Hz. İsa (ə.s)-ın yer üzünə dönüşü, bütün dünyaya təsir edəcək fövqəladəliklər daşıyan, möcüzəvi və metafizik hadisədir. Məhz bu səbəblə bütün iman sahiblərinin tezliklə hərəkətə keçmələri və birlik içində hz. İsa (ə.s)-ı ən gözəl şəkildə qarşılamaq üçün əllərindəki bütün imkanları səfərbər etmələri lazımdır. Həyəcanla, eşqlə, şövqlə ediləcək olan bu böyük hazırlıq feli dua olacaq, bu hazırlığı etməyənlər isə hz. İsa (ə.s) yer üzünə döndüyü zaman heç şübhəsiz çox böyük utanc yaşayacaqlar.

Bütün əlamətlər bizə göstərməkdədir ki, hz. İsa (ə.s)-ın dünyaya gəlişi çox yaxındır və hazırlıq etmək üçün itiriləcək zaman yoxdur. Bu nöqtədə bütün inananların əməkdaşlıq etmələri və yer üzündə qarışıqlığa və təxribatlara səbəb olan ateist və materialist düşüncələrə qarşı birlikdə fikri mübarizə vermələri lazımdır.

ƏLAVƏ

# Şəkilaltı yazılar

səh. 4

Canlıların mərhələ-mərhələ meydana gəldiyini, yəni təkamül keçirdiyini göstərən tək bir fosil belə yoxdur. 150 ildən çox müddətdir, dünyanın dörd bir tərəfində aparılan qazıntılarda əldə edilən fosil qeydləri, balıqların həmişə balıq, böcəklərin həmişə böcək, quşların həmişə quş, sürünənlərin həmişə sürünən olduğunu isbat etmişdir. Canlı növləri arasında bir keçid olduğunu, məsələn balıqların sürünənlərə, sürünənlərin quşlara çevrildiyini göstərən tək bir fosil görülməmişdir. Qısacası fosil qeydləri, təkamül nəzəriyyəsinin təməl iddiası olan, növlərin uzun müddətlər ərzində dəyişmələrə məruz qalaraq bir-birindən törədiyi iddiasını qəti olaraq çürütmüşdür.

səh. 5

Canlılıq, həyatın elementi olan zülaldan, onun ən üstün səviyyəsi olan insan bədəninə qədər, sayı sonsuza yaxın həssas tarazlıq üzərinə quruludur. Bir Yaradıcının varlığını qəbul etməyən təkamül nəzəriyyəsi isə, bütün bu tarazlıqların bir şüur olmadan necə qurulduğu və qorunduğu sualına, "təsadüf"dən başqa bir açıqlama gətirə bilməməkdədir. Halbuki bəhs edilən tarazlıqlar o cür həssas və rəqəm olaraq da o qədər çoxdur ki, bunların "təsadüfən" meydana gəldiklərini irəli sürmək, heç bir şəkildə ağıl və sağlam fikir ilə uyğun gəlməməkdədir. Canlılığı meydana gətirən milyonlarla faktordan yalnız birinin, məsələn canlı hüceyrələrinin təməl vəsaiti olan zülalın "təsadüfən" meydana gəlmə ehtimalı, qəti olaraq sıfırdır.

səh. 6

Kainatdakı çox saydakı irili xırdalı planetin hər biri böyük bir nizamın vacib əhəmiyyət daşıyan hissələrini meydana gətirər. Heç birinin nə kosmosdakı mövqeləri, nə də hərəkətləri təsadüfi deyil; tam tərsinə bildiyimiz bilmədiyimiz saysız detallarıyla xüsusi olaraq nizamlanmış, müəyyən bir məqsəd üzərinə yaradılmışlar. Necə ki, kainatdakı tarazlıqları təsir edən saysız meyardan yalnız planetlərin mövqelərindəki dəyişmə belə iç-içə keçmiş tarazlıqları alt-üst etmək, qarışıqlığa səbəb olmaq üçün yetəri ola biləcək xüsusiyyətdədir. Ancaq bu tarazlıqlar heç bir zaman səhv etməz və kainatdakı

mükəmməl nizam da heç bir axsaqlığa uğramadan davam edər. Bu, üstün güc sahibi olan Allahın qüsursuz yaratmasıdır.

səh. 7

Ürəyimiz, 1 gün içində bədənimizdəki bütün qanın 1000 tam dövr etməsini təmin edər. Dayanmaq bilməyən bu nasos gündə 24 saat heç dayanmadan işlər. Bu nasosun bədənimizin ehtiyaclarını qarşılaya bilməsi üçün öz elektrik sistemini istifadə edərək işə başlaması və 1 saatlıq müddətdə orta böyüklükdəki bir avtomobili, yerdən təxminən 1 m. yüksəkliyə qaldıra biləcək qədər enerji yaratması lazımdır. Məhz bu fövqəladə sistemi vəsilə edərək biz insanlara bir ömür boyu yaşama imkanı verən Uca Allahdır.

İnsan bədənində hər detalı planlanmış və çox həssas tarazlıqlar üzərinə oturdulmuş bir sistem vardır. İlk olaraq eşitmə orqanımız olan qulaqdakı həssas tarazlığı buna nümunə olaraq verə bilərik. Halbuki daha çox səsi eşidə bilən bir qulaq bizim üçün bir üstünlük deyil, əksinə çətinlik verəcək bir vəziyyət meydana gətirərdi. Yenə düşünək. Eşitdiyimiz səslər içində bizim üçün dözülməz olan bir səs yoxdur. Bunun səbəbi insan qulağındakı mükəmməl işləyən yaradılışdır. İnsan bədənindəki digər bütün orqanlar kimi qulaq da tam lazımlı olan xüsusiyyətlərə malikdir. Məsələn insan qulağında "eşitmə limiti" olaraq adlandırılan qəbul sərhədləri müəyyən bir məqsədə istiqamətli olaraq nizamlanmışdır. Əgər çox həssas bir qulağa sahib olsaydıq nələr olardı bir düşünək... Bu sistem olmasaydı, heç şübhə yox bir çox narahat edici səsi eşitmək məcburiyyətində qalardıq.

səh. 9

Darvinizm haqqında yetəri məlumata sahib olmayan bir insan, Darvinizmin necə bir təhlükə olduğunun fərqinə varmaya bilər. Bu düşüncənin ictimai və əxlaqi olaraq nə böyük fəlakətlərə gətirib çıxardığını bilmədiyi üçün də, Darvinizmlə edilən fikri mübarizənin nə qədər əhəmiyyətli olduğunu anlaya bilməmiş ola bilər. Halbuki Allahın varlığını və birliyini, insanların Allaha qarşı məsul olduğu həqiqətini rədd edən darvinist ideologiya, insanlara kor təsadüflərin əsəri və sözdə bir növ heyvan olduqları təlqinlərini edərək böyük məhvlərə zəmin hazırlayar. Həyatı bir mübarizə sahəsi olaraq qəbul edər, zəifləri əzilməyə və məğlub olmağa məhkum fərdlər olaraq göstərərkən, yalnız güclülərin ayaqda qalacağı iddiasında olarlar. Məhz bu səbəblə Darvinizmlə elmi mübarizə çox əhəmiyyətli və çox vacibdir.

səh. 12

## İngiltərədə avtobus bombalanması

Allaha iman edən və Onun vəhyinə itaət edən insanlar olaraq, gəlin ortaq “iman” sözündə birləşək. Müsəlmanlar, xristianlar və yəhudilər bu şəkildə ortaq bir sözdə birləşdiklərində, bir-birlərinin düşməni deyil dostu olduqlarını anladıqlarında əsl düşmənin ateizm, materializm və dinsizlik olduğunu gördüklərində və birlikdə bu fikirlərə qarşı elmi mübarizə icra edildiyi təqdirdə, əsrlərdir sürən qarşıdurmalar, nifrətlər, qorxular, terror hadisələri sona çatacaq.

## 11 mart 2004-cü il

## Madriddə qatar bombalanması

İman edənlərin birlik olub bütün dinsiz ideologiyalara qarşı edəcəkləri fikri mübarizə həsrəti çəkilən sülhü və hüzur təmin edəcək. Allah ayələrində belə buyurmaqdadır: “Kafirlər də bir-birinə dostdurlar. Əgər siz bunu etməsəniz (bir-birinizə yardımçı olmasanız), yer üzündə fitnə və böyük bir fəsad baş verər” (Ənfal surəsi, 73)

səh. 13

Dini və əxlaqi dəyərləri hədəf alan güc mərkəzləri bütün imkanlarını bir yerə gətirərək böyük ittifaq meydana gətirmiş vəziyyətdədirlər. Ancaq bu ittifaqı fikri mənada yox etmək bizlərin, dindar insanların əlindədir. Dinsiz və materialist təlqinlərin mənfi və dağıdıcı nəticələrini birlik olaraq ortadan qaldıra bilərik. Gözəl əxlaqın, hüzurun, təhlükəsizliyin və rifahın hakim olduğu bir cəmiyyət meydana gətirə bilərik. Bunun tək yolu yer üzündəki üç İlahi dinin (Müsəlmanlıq, Yəhudilik, Xristianlıq) bu ortaq məqsəd istiqamətində bir araya gəlməsidir.

İnanclı, səmimi, vicdanlı və sağlam fikirli xristianlara, yəhudilərə və müsəlmanlara düşən, pisliklərə və pislərə qarşı ortaq bir mübarizə icra etmək, köməkləşmək, birlik və bərabərlik içində çalışmaqdır. Bu birlik, sevgi, hörmət, tolerantlıq, anlayış, uyğunlaşma və əməkdaşlıq prinsipləri təməl alınaraq inşa edilməlidir. Vəziyyətin nə qədər təcili olduğu göz qarşısında saxlanılmalı; çəkişmə, mübahisə və ayrılığa gətirib çıxaracaq ünsürlərdən şiddətlə qaçınmalıdır.

səh. 16

Xristianlar, yəhudilər və müsəlmanlar arasındakı tarixi problemlərə, ön mühakimələrə, səhv anlamalara və ya fanatizmə söykənən mübahisələrə, çəkişmələrə tamamilə son

verilməlidir. İtiriləcək zaman belə olmadığı unudulmamalıdır. Hər iki tərəfin də bir-birinə anlayışla və şəfqətlə yaxınlaşması lazım olduğu açıqdır.

Əhəmiyyətli olan, fərqləri deyil ortaq nöqtələri gündəmə gətirmək, çətinləşdirici deyil asanlaşdırıcı, dağıdıcı deyil qurucu, maneə törədici deyil kömək edici, ayırıcı deyil tamamlayıcı, bölücü deyil birləşdirici olmaqdır.

səh. 17

Guya təkamül və ya guya elm adı altında, həm açıq, həm də örtülü, dərin təbliğat insanları əhatə etməkdədir. Nəzər saldığınız qəzet, qarşılaşdığınız reklam afişası, oxuduğunuz kitab, izlədiyiniz film, televiziyada seyr etdiyiniz sənədli film və ya internet mühiti bir Yaradıcının varlığını və Yaradılışı inkar edən mesajlarla doludur. Halbuki Yaradılışın dəlilləri insanı ətraflı əhatə etmişdir. Ətrafımızda gördüklərimizi, bədənimizin dərinliklərindəki hüceyrələrdən ucsuz-bucaqsız qalaktikalara qədər kainatdakı hər şeyi Allah yaratmışdır. Bunlardakı qüsursuzluq, görkəmli sənət, möhtəşəm nizam və mükəmməl strukturlar Onun yaradılışının dəlilləridir.

səh. 23

Aşağıda 638 ilində Ortodoks Patriarx Sophronios adına hz. Ömər tərəfindən nəşr olunmuş olan fərman. Bu fərmanla, müqəddəs torpaqlarda yaşayan xristianların bütün haqlarının zəmanət altına alındığı bildirilməkdədir.

səh. 31

Ateist və materialist kütlələr tərəfindən müxtəlif təbliğat üsullarıyla gündəmdə tutulmağa çalışılan “New Age” inanışları, insanları Allah inancından uzaqlaşdırma, din əxlaqının gətirdiyi əxlaqi gözəllikləri tərk etmə və Allahın vəhyi yerinə batil işlərə yönəltmə hədəfini daşımaqdadır. Məsələn yoqa, şəfaçılıq, bioenerji müalicələri, meditasiya kimi tətbiqlər dövrümüzdə görülən batil inanışlarda çox böyük yer tutmaqdadır. Astrologiya, tarot kartları, falçılıq və kahinlik də bu mədəniyyətin əhəmiyyətli bir hissəsini meydana gətirər. Bununla yanaşı karma, reinkarnasiya, reiki, feng shui, astral bədən, kristalların insanlar üzərində fərqli gücləri olduğuna inanma, ağ və qara cadu, kəhanət, tilsim tərzi obyektlərlə pis ruhların qovula biləcəyinə inanma, şeytan çıxarma, telepatiya və telekinezi kimi tətbiqlər də azğın “New Age” inanışlarından yalnız bəziləridir. Bu batil inanışları qurtuluş, hüzur, rifah, ya da müvəffəqiyyət yolu olaraq görənlər çox böyük aldanış içindədirlər.

Televiziya proqramlarında, qəzet və jurnallarda insana heç bir fayda təmin etməyəcək batil təlimlərin reklamı edilməkdə və bu təlqinin təsirində qalan bəzi insanlar isə meyllənərək və nə etdiklərini belə bilmədən eyni şeyləri tətbiq etməyə başlamaqdadırlar. Son zamanlarda ictimaiyyəti əhatə edən Reiki modası da eyni yalanın bir məhsuludur. Cəmiyyət içində diqqət çəkmək, orijinal olub maraq toplamaq istəyən kəslər bu batil təlimin təbliğatından təsirlənməkdədirlər. Halbuki Reiki böyük aldatmadır və əsla insanı qurtuluşa çatdırmaz. İnsanın Allahdan başqa heç bir dostu, köməkçisi, vəlisi yoxdur. Allahın xaricində heç bir gücün insana zərər verməsi, ya da fayda təmin etməsi mümkün deyil.

səh. 33

İslama görə Axırzaman, çətinliyin və qıtlığın yerini bolluğun və bərəkətin, ədalətsizliyin yerini ədalətin, əxlaqsızlığın yerini gözəl əxlaqın, qarışıqlığın yerini sülhün və hüzurun aldığı və bütün inanan qulların əsrlərdir həsrətini çəkdiyi, İslam əxlaqının hakim olduğu müqəddəs dövrdür. Hz. Məhəmməd (s.ə.v)-ın hədislərində bu dövrü və xüsusiyyətlərini açıqlayan ətraflı izahatlar vardır. Bu dövrdə Allah insanları qurtuluşa çatdırmaq üçün "Mehdi" (doğruya aparan) sifətini daşıyan üstün əxlaqlı bir qulunu vəsilə edəcək. Hz. Mehdi (ə.s), əvvəl İslam dünyasının içində fikri mübarizə aparacaq və İslamın əslindən qopmuş olan müsəlmanları həqiqi imana və əxlaqa çevirəcək. Daha sonra hz. İsa (ə.s) ilə birlikdə İslam və Xristian dünyalarını tək bir inancda birləşəcək və dünya "Qızıl dövr" olaraq xatırlanan böyük sülh, təhlükəsizlik, xoşbəxtlik və rifah dövrü yaşayacaq.